*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

31 İYUL
2022-Cİ İL
№ 014 (161)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## “GÜRCÜ ARZUSU”NU TƏRK EDƏNLƏR YENİ HƏRƏKAT YARADIBLAR



Gürcüstanın hakim Gürcü Arzusu Partiyasından istefa verənlər yeni hərəkat yaradıblar. Bu barədə hakim partiyanın sabiq deputatı və sabiq naziri Sozar Subari brifinqdə deyib.

Onun sözlərinə görə, onunla birlikdə partiya sıralarını tərk edən şəxslər ölkədəki siyasi gərginliyi azaltmaq, ictimaiyyəti düzgün məlumatlandırmaq üçün bu addımı atırlar və hərəkatın məqsədi ictimai-siyasi mühitdə mövcud olan suallara cavab verməklə yanaşı, ölkənin müharibəyə cəlb olunmasının qarşısını almaq və Gürcüstanın Avropaya inteqrasiyasının dönməzliyinə töhfə verməkdir.

Qeyd edək ki, “Gürcü Arzusu”nun qurucusu, sabiq Baş nazir Bidzina İvanişvili bəzi qüvvələr tərəfindən Gürcüstanın müharibəyə cəlb olunmasına təhrik etmələri barədə açıqlama vermişdi. ABŞ-ın Gürcüstandakı səfirliyi isə bəyanatla çıxış edərək bunun düzgün olmadığını bildirib.

Deputatın sözlərinə görə, Bidzina İvanişvilinin dərc etdirdiyi məktub Gürcüstanın müharibəyə cəlb olunma təhlükəsi ilə bağlı bir müddət ərzində danışılanları təsdiq etdi. Bu gün bu təhlükə azalıb, amma tam aradan qalxmayıb – təhlükə var.

*“Gürcüstan müharibəyə cəlb olunsa, nə Avropa İttifaqının, nə də NATO-nun köməyindən söhbət gedə bilməz. Gürcüstan dövləti ləğv olunacaq. Biz çalışmalıyıq ki, bu müharibəni ölkədən və xalqdan uzaqlaşdıraq. Bunun üçün pərdə arxasında, dövlət siyasətindən kənarda baş verənləri ictimaiyyətin diqqətinə çatdırmaq, ictimaiyyətə daha çox həqiqəti söyləmək, daha çox məlumat vermək lazımdır. Siyasətdə qapalı olanlar ölkəyə xeyir verməyəcək”*, - deyə Sozar Subari bildirib.

## İYULUN 30-U MATƏM GÜNÜ ELAN OLUNUB




Gürcüstanda iyulun 30-u matəm günü elan olunub. Bu barədə ölkənin Baş naziri İrakli Qaribaşvili müvafiq qərar imzalayıb.

Qərara əsasən, iyulun 29-u Qudauri dağ kurortu ərazisində Sərhəd Polisinə məxsus “Mi-8” tipli helikopterin qəzaya uğraması nəticəsində həlak olan 8 nəfərin xatirəsinə ehtiram əlaməti olaraq ölkə ərazisində dövlət bayraqları endirilib.

Həlak olanların 4-ü ekipaj üzvü, 2-si xilasedici, 2-si isə tibb işçisi olub.

Hökumət başçısı həlak olanların ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

## DTX-NİN KEÇMİŞ RƏİS MÜAVİNİ HƏBS OLUNUB



Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçmiş rəis müavini Soso Qoqaşvili həbs olunub. Onun gecə saatlarında xüsusi polis əməliyyatı nəticəsində evində həbs edildiyini əks etdirən videokadrları həyat yoldaşı sosial şəbəkədə yayıb.

S.Qoqaşvili iyulun 15-i sosial şəbəkə səhifəsində 2021-ci ildə Gürcüstanda keçirilmiş yerli seçkilərin nəticələrinin saxtalaşdırılması barədə sübutların olduğunu yazaraq hakim Gürcü Arzusu Partiyasının liderlərinə onları ifşa edəcəyinə söz verib.

Qeyd edək ki, S.Qoqaşvili 2018-ci ildə DTX-nin rəis müavini vəzifəsindən istefa verib. O, daha sonra 2020-ci ilədək hakim partiyada Monitorinq, koordinasiya və analitika departamentinə rəhbərlik edib.

## HAKİM PARTİYADAN DAHA BİR DEPUTAT İSTEFA VERİB



Gürcüstan parlamentinin deputatı Quram Maçaraşvili hakim Gürcü Arzusu Partiyasından istefa verib. O, bununla bağlı bəyanatla çıxış edib.

Q.Maçaraşvili hakim partiya sıralarını iyunun 28-də tərk etmiş həmkarları - Sozar Subari, Mixeil Kavelaşvili və Dmitri Xundadzeyə qoşulacağını bildirib.

O, bundan sonra müstəqil deputat kimi fəaliyyət göstərəcəyini deyib.

Qeyd edək ki, son bir ayda partiyanı dörd deputatla yanaşı bölgələrdəki məmurlar da tərk edib.

Səh. 2 HOBBİ - Azər Musaoğlu yazır
Səh. 3 HİCRƏT VƏ MƏHƏRRƏM - Hacı Bəkiroğlu yazır
Səh. 4 İMTAHANLARIN NƏTİCƏLƏRİ AVQUSTUN ƏVVƏLİNDƏ YAYIMLANACAQ
Səh. 4 MÜƏLLİMLƏRİN UCADAN DANIŞA BİLMƏDİYİ ÜÇ PROBLEMLİ MƏSƏLƏ
Səh. 5 ENERCAYZER - Lətafət Kərimova yazır
Səh. 5 QARA ŞÜŞƏLƏRİ OLAN PƏNCƏRƏLƏR - Çiyalə Osmanova yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır



# HOBBİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bilirsiniz, biz niyə başqalarının həyatı ilə daha çox maraqlanırıq? Qızıldan qiymətli vaxtımızı onun-bunun həyatına burun soxmaqla xərcləyirik? – Ay kim nə qədər maaş alır, harada işləyir, niyə evlənmir, niyə uşaq dünyaya gətirmir; ay nə bilim filankəs niyə boşandı, bəhmənkəs kiminlə fırlanır, hara gedib-haradan gəlir, necə gedib-necə gəlir, gündüz gedib-gecə gəlir, tək gedib cüt gəlir, kimin maşınında gedib-gəlir; nə yeyir, nə içir, hansı rəngdə alt paltarı geyinir, harada dincəlir, hansı pullarla dincəlir, maşını hansı pullarla alır, benzini hansından süzür, nə qədər su pulu ödəyir; hansı xəstəliklərdən əziyyət çəkir, babasili varmı (varsa tibbə hələ də məlum olmayan çeşid-çeşid reseptlər məsləhət görür), dişlərini hansı məcunla yuyur, bahalı ya ucuz tualet kağızındanmı istifadə edir və sair və ilaxır...

Və bütün bunlara bir ömür vaxt sərf edirik, bir də təqvimə və güzgüyə baxıb görürük ki, lələ köçüb, yurdu qalıb. Başqalarının həyatına (həyatinə də) öz həyatımızdan (həyətimizdən) çox vaxt ayırmışıq. Onu-bunu güdə-güdə öz işimiz-gücümüz qalıb ortalıqda. Evlənən evlənib, boşanan boşanıb təzədən evlənib, boşanmayan da oğul-qız evləndirib, boşadıb. Sən isə qonum-qonşunu güdən nəzarət kamerası kimi, qeybət makinası kimi cansız ömür sürmüsən.

Niyə?

Çünki bizim heç bir hobbimiz yoxdur!

İngilis sözü olan hobbini dilimizə sevimli məşğuliyyət, həvəslə görülən iş, maraqlandığın sahə, peşə, məşğələ kimi də tərcümə etmək olar. Hansısa hobbisi olan insan boş vaxtında dincəlmək üçün, zövq almaq üçün, özünü ifadə etmək üçün, əsəbdən, stresdən, nifrətdən azad olmaq üçün, ağır iş gününü yüngülləşdirmək üçün öz hobbisinə sığınır. Kimi rəsm çəkir, kimi marka toplayır, kimi mütaliə edir, kimi həşəratları öyrənir, kimi rəngli daşlar yığır, şam qozalarından müxtəlif bəzək əşyaları düzəldir, kimi filmə baxır, kimi hasar boyayır, gül əkir, ağac calayır, kimi səyahət edir, kimi heyvan saxlayır, yoqayla məşğul olur, idmana gedir, şahmat oynayır, kimi toxuculuqla məşğul olur, kimi balıq tutur və sair və ilaxır.

Və bununla da başı özünə qarışmış insan başqalarının həyatına burun soxmağa, göz dikməyə, çənə döyməyə vaxt eləmir. Öz həyatını yaşayır, öz istədiyi kimi yaşayır, öz sevdiyi işləri görür. Həyatdan da, işindən də, istirahətindən də zövq almış olur. Başqalarının həyatını zəhərləmir. Onu-bunu güdmür. Bunu istəsə də fiziki olaraq bu yaramaz iş üçün vaxtı olmur.

Niyə?

Çünki hobbisi var!

Aparılan bir çox araşdırmalara görə, bədbəxt insanların 38 faizinin heç bir hobbisi yoxdur. Bu araşdırmalar biz tərəflərdə aparılsaydı yəqin faiz göstəricisi də artıq olardı, hardasa 90 faiz-zad. Çünki bizdə əksəriyyətin hobbisi yoxdur. Ümumiyyətlə, hobbi nədir, necə olur bilmirik. Hobbini bir kənara qoyaq, başqalarının həyatı ilə maraqlananlar, gününü onu-bunu güdməklə keçirənlər, burnunu özgəsinin işinə soxanların sayına gəldikdə, yəqin ki, birinci yerlərdəyik. Müqayisə üçün "yuxarıları" göstərmək yetərlidir. Məsələn, Amerika prezidentlərinin əksəriyyətinin hobbisi olur, ən azından gitarada ifa etməyi bacarırlar. Bizdə isə prezidentlər də başqalarının həyatı ilə maraqlanır, onu-bunu güdür, qeybət edirlər. Balıq başdan iylənər yəni.

Həvəslə, sevərək, həzz alaraq, dincələrək məşğul olduğunuz istənilən məşğuliyyət növü hobbidir. Boş vaxtlarınızı sərf etməyə özünüzə hobbi tapın. Başqalarının həyatları ilə maraqlanmağı özünüzə hobbi etməyin. Allahdan qorxun!

## MİXEİL SAAKAŞVİLİ SİYASƏTDƏN GEDİR



Mixeil Saakaşvili siyasətdən gedir və özünün yaratdığı Vahid Milli Hərəkat Partiyasını (VMHP) tərk edir. Bu barədə onun vəkili Valeri Qelbaxiani bildirib.

Vəkil Gürcüstanın keçmiş prezidentinin siyasəti tərk etməsinin səbəbini onun həyat təhlükəsizliyi ilə əlaqələndirib.

"Mixeil Saakaşvilinin siyasi resursu tükənib. Onun indi əsas vəzifəsi sağlamlığının qayğısına qalmaqdır. O, nə siyasətlə maraqlanır, nə də bu mövzuda danışır. İndi söhbət siyasətdən yox, onun həyatından gedir", - deyə vəkil bildirib.

Məsələyə münasibət bildirən VMHP-nin üzvü Baço Dolidze isə M.Saakaşvilinin partiyadan uzaqlaşması məsələsinin gündəmdə olmadığını bildirib. O, vəkilin açıqlamasına təəccübləndiyini qeyd edib.

Xatırladaq ki, M.Saakaşvili hazırda Tbilisidəki "Vivamed" özəl klinikasında müalicə olunur. O, xəstəxanaya mayın 12-də köçürülüb.

## İLİA DARÇİAŞVİLİ: "BÖLGƏDƏ SÜLHƏ ALTERNATİV YOXDUR"

"Gürcüstan regionda sülh və dialoqun qurulmasına sadiqdir. Belə ki, bölgədə sülhə alternativ yoxdur". Bu fikirləri Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə keçirdiyi birgə brifinqdə deyib.



O, Türkiyənin XİN başçısı ilə görüşdə regionda təhlükəsizlik məsələləri, həmçinin Cənubi Qafqazda baş verən proseslərin müzakirəsini apardığını bildirib.

"Əminəm ki, birgə səylərlə biz mövcud çağırışların öhdəsindən gələ bilərik. Əməkdaşlığın daha da dərinləşdirilməsi regionda sabitlik və inkişaf üçün zəmin yarada bilər", - deyə İ.Darçiaşvili bildirib.

## BAŞ NAZİRİN ÖZBƏKİSTAN VƏ TÜRKMƏNİSTANA SƏFƏRİ REGİON DÖVLƏTLƏRİNİN İNKİŞAFI ÜÇÜN YENİ İMKANLAR AÇACAQ



Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Özbəkistan və Türkmənistana səfəri bütövlükdə region dövlətlərinin inkişafı üçün yeni imkanlar açacaq. Bu sözləri mətbuata açıqlamasında Gürcüstanın Baş nazirinin müavini iqtisadiyyat naziri Levan Davitaşvili söyləyib.

Onun sözlərinə görə, Baş nazirin Mərkəzi Asiyaya səfərinin xüsusi əhəmiyyəti var. O, Özbəkistanda və Türkmənistanda rəsmi səfərdə olub. Ümumiyyətlə, bu səfər bir tərəfdən bu regionun, digər tərəfdən isə Gürcüstanın malik olduğu iqtisadi potensialdan maksimum istifadə etmək üçün regionumuzun Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığına töhfə verməlidir ki, iqtisadi potensial güclənsin.

L.Davitaşvili deyib ki, Türkmənistanla nəqliyyat sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb. Bu sənəd Aşqabada birbaşa uçuşlara imkan verəcək və eyni zamanda, iqtisadi əlaqələrin daha da dərinləşməsinə töhfə verəcək.

"Türkmənistan mühüm kimya sənayesinə malik ölkədir və Gürcüstan dəhlizindən istifadə etməkdə maraqlıdır. Gürcüstanın nəqliyyat və logistika infrastrukturundan istifadə etməklə öz məhsullarını ixrac edəcək və əlavə yük dövriyyəsini artırmağa imkan yaradacaq. Ümid edirəm ki, yaxın gələcəkdə Türkmənistandan Gürcüstana əlavə yüklər gələcək. Biz enerji sahəsində əməkdaşlıqdan da danışdıq. Bu gün Türkmənistan Gürcüstana neft və neft-kimya məhsulları göndərir, lakin burada söhbət Gürcüstana ucuz enerji resurslarının idxalından gedir və nazirliyimiz gələcəkdə həmkarlarımızla birlikdə bu məsələ üzərində işləyəcək", - deyə L. Davitaşvili bildirib.

## İSTANBULDA AZƏRBAYCAN-GÜRCÜSTAN-TÜRKİYƏ ƏMƏKDAŞLIQ FORMATI MÜZAKİRƏ OLUNUB



Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatı çərçivəsində müxtəlif istiqamətlər üzrə əməkdaşlıq uğurla inkişaf edir. Bu fikirlər Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili və Türkiyənin XİN başçısı Mövlud Çavuşoğlu arasında İstanbulda baş tutmuş görüşdə səsləndirilib.

Nazirlər iki ölkənin çoxtərəfli formatlarda, xüsusən də Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli formatında münasibətlərini xüsusilə vurğulayıblar.

Regionda baş verən proseslərə toxunan XİN başçıları Cənubi Qafqazda sabitlik və dayanıqlı inkişafın təminatı prosesində Gürcüstanın vacib rolunu vurğulayıblar. Bu kontekstdə M.Çavuşoğlu Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Tbilisidə baş tutmuş ilk görüşünü alqışlayıb və Gürcüstanın bu proses, həmçinin bölgədə sülhün bərqərar olunmasında gələcəkdə də müsbət rol oynayacağına ümidvarlıq ifadə edib.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ TİCARƏT DÖVRİYYƏSİNİ 3 MİLYARD DOLLARA ÇATDIRACAQ

Gürcüstanın XİN başçısı İlia Darçiaşvili deyib ki, "Gürcüstan və Türkiyə arasında ticarət dövriyyəsinin dəyərini 3 milyard ABŞ dollarına çatdırmaq niyyətindəyik".

Onun sözlərinə görə, bu göstəricinin tezliklə əldə olunacağı gözlənilir.

"Bu prosesə kömək məqsədilə və ölkələrimiz arasında ticari-iqtisadi əməkdaşlığı maksimum sadələşdirmək üçün həm xarici işlər nazirlikləri, həm də digər dövlət orqanları bir-biri ilə fəal əməkdaşlıq edir. Gələcəkdə bu prosesə mane olan texniki baryerləri maksimal dərəcədə aradan qaldırmağa çalışacağıq".

XİN başçısı qeyd edib ki, Gürcüstan bazarının Türkiyənin özəl sektoru və sərmayələri üçün cəlbediciliyinin artırılması istiqamətində də müvafiq dəstək tədbirləri həyata keçirilir.

## XARİCİ İŞLƏR NAZİRİ TÜRKİYƏNİN YENİ SƏFİRİ İLƏ REGİONDAKI VƏZİYYƏTİ MÜZAKİRƏ EDİB



Gürcüstanın xarici işlər naziri İlia Darçiaşvili Türkiyənin yeni səfiri Ali Kaan Orbayla görüşüb. Nazir səfiri diplomatik missiyasının başlaması münasibətilə təbrik edərək ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında ikitərəfli əməkdaşlığın dinamik gündəliyini və gələcək münasibətlərin inkişaf perspektivlərini müzakirə ediblər. Türkiyənin Gürcüstanın Avroatlantik səylərinə sarsılmaz dəstəyi xüsusilə vurğulanıb.

Görüşdə regiondakı hazırkı vəziyyətə də toxunulub, bölgənin uzunmüddətli tərəqqisi və inkişafı üçün sülh və sabitliyin dəstəklənməsinin zəruriliyi qeyd edilib.

Söhbət zamanı Gürcüstanla Türkiyə arasında mövcud sıx əməkdaşlıq və strateji tərəfdaşlığın daha da dərinləşdirilməsinin vacibliyi də vurğulanıb.

Sonda tərəflər Gürcüstan-Türkiyə münasibətlərinin uğurlu inkişafı üçün fəal əməkdaşlığa dair razılığa gəliblər.

## TÜRKİYƏ GÜRCÜSTAN ORDUSUNU LOGİSTİK AVADANLIQLARLA TƏCHİZ EDİB

Gürcüstanın Müdafiə Nazirliyinin məlumatına əsasən, Türkiyə Gürcüstanın Müdafiə Qüvvələrini yeni logistik avadanlıqlarla təchiz edib.

Gürcüstan ordusunun logistika imkanlarının təkmilləşdirilməsi məqsədilə Türkiyənin "Hidromek" şirkətinə məxsus 8 mini ekskavator-yükləyici traktor təqdim olunub.

Texnikanın təhvil-təslim mərasimində Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze və Türkiyə səfiri Ali Kaan Orbay iştirak ediblər. Onlar yeni avadanlıqlara baxış keçirib və imkanları ilə tanış olublar.

Logistika avadanlıqlarının təhvil verilməsi




2019-cu ildə Gürcüstan və Türkiyə arasında imzalanmış hərbi maliyyə əməkdaşlığı sazişi çərçivəsində həyata keçirilib. Avadanlığın dəyəri 404 824 ABŞ dolları təşkil edir.

## HİCRƏT VƏ MƏHƏRRƏM



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Dünyada fərqli dinlərə, fərqli millətlərə aid fərqli təqvimlər istifadə edilməkdədir. Bu gün islam aləmi üçün də hicri-qəməri adı verilən ayla (hilalla) təsbit edilən bir təqvim istifadə olunur. Qəməri təqvim deyilməsinin səbəbi də budur. Bizim bu gün ölkə olaraq istifadə etdiyimiz təqvim miladi təqvim adlanır. Bu təqvim isə günəşlə tərtib olunur.

Həzrət Peyğəmbərin Məkkədən Mədinəyə hicrətinin reallaşdığı və Rəhmət Peyğəmbərinin "Allahın ayı" olaraq xarakterizə etdiyi Məhərrəm ayına qədəm qoymuşuq. Bir çox qaynaqlara əsasən, həzrət Ömərin xəlifəliyi dövründə toplanan şura iclasında həzrət Əlinin təklifi ilə hicrət təqvim başlanğıcı olaraq qəbul edilmiş və o gündən etibarən islam aləmində 1 Məhərrəm hicri təqviminin başlanğıcı sayılmışdır.

Əgər hicrəti tərif edəsi olsaq, belə demək daha doğru olardı məncə: hicrət, Allaha və onun elçisi Rəhmət Peyğəmbərinə könüldən bağlılığın bir ifadəsi, dostluğa, qardaşlığa, irfana, mədəniyyətə və elmə açılan səfərin hekayəsidir.

Hz. Adəm və Həvva anamızın cənnətdən yer üzünə enməsiylə başladı insanlığın ilk hicrət hekayəsi. Ardından bir çox hicrətlər baş verdi. Gah bir gəmi ilə tufanlara üz tutuldu, gah dağlardan aşıldı, çöllərdən, dənizlərdən keçildi. Gah Kəbəni fəth etmək oldu hicrətin səmərəsi. Bəzən Yəsribin mədəniləşməsi, mədəniyyət günəşinin oradan doğması oldu. Bəzən də fədakarlığın və vəfanın adı oldu hicrət. Kimisi də hicrət əziyyətinin şirin dadını ənsar-mühacir qardaşlığında və dostluğunda daddı. "Fəthdən sonra hicrət yoxdur" buyuran Əfəndimiz qiyamətə qədər ümmətin əsl hicrətinin Allahın qadağan etdiyi şeylərdən uzaq durmasıyla reallaşacağını xəbər verirdi.

Məhərrəm ayı eyni zamanda Hz. Peyğəmbərin (s.ə.s.) nəvəsi Hz. Hüseynin və Əhli-Beyt mənsubu olan 70-dən çox insanın siyasi ehtiraslar uğruna Kərbəlada şəhid edilməsi səbəbiylə müsəlmanların ortaq yaddaşında böyük bir ağrının tarixidir. Bu ürək ağrıdan hadisə xüsusilə məzhəbi nə olursa olsun, bütün müsəlmanların ortaq acısıdır. Kərbəlada mərhəmətsizcə şəhid edilən Hz. Hüseyn və yoldaşlarının bu hadisədəki mərd duruşları və haqsızlıqlar qarşısındakı şərəfli mübarizələri bütün möminlərin könüllərində taxt qurmuş, Hz. Hüseyn və yaxınlarına bu zülmü rəva görənlər isə insanlığın qınağına məhkum edilmişdir.

Kərbəla hadisəsi islam cəmiyyətlərinin hamısında əhəmiyyət daşıyan bir hadisədir. Bu əhəmiyyətə istinadən Məhərrəm, Aşura və Kərbəlanın islam cəmiyyətlərinin dini-mədəni həyatında da bəzi əksini tapmışdır. Müsəlman coğrafiyasında bu ayda tutulan oruclar, bişirilib paylanan aşuralar və Kərbəlada Hz. Peyğəmbərin (s.ə.s.) nəvəsi Hz. Hüseyn ilə birgə ailəsi və yanında olanlardan şəhid olanların yad edilməsi bunların başlıcalarıdır. Necə ki Hz. Hüseynin şəhadətinə duyulan kədər şeirlərə, mərsiyələrə əks olunmuş, bu sahədə bir çox əsər qələmə alınmışdır. Bunlardan birində Aşiq Yunus duyğularını belə dilə gətirir:

*Şəhidlərin sərçeşməsi, Ənbiyanın bağrı başı,*
*Övliyanın gözü yaşı Həsən ilə Hüseyndir.*
*Həzrət Əli babaları, Məhəmməddir dədələri,*
*Ərşin iki küpələri Həsən ilə Hüseyndir.*
*Kərbəladır yazıları, şəhid olmuş qaziləri,*
*Fatma ana quzuları Həsən ilə Hüseyndir.*
*Dərviş Yunus dünya fani, bizdən əvvəl gələn hanı,*
*İki cahanın sultanı Həsən ilə Hüseyndir.*

İndi bütün müsəlmanlara düşən əhəmiyyətli vəzifələrdən biri bu cür hadisələrdən ibrət götürmək, dərslər çıxarmaq və birlik və bərabərliyimizi zədələyəcək hər cür mənfi hərəkət və davranışlardan qaçınmaqdır.

## İMTAHANLARIN NƏTİCƏLƏRİ AVQUSTUN ƏVVƏLİNDƏ YAYIMLANACAQ

Müəllimlərin fənn və peşə qabiliyyəti imtahanı artıq başa çatıb. Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi imtahanlarda tətbiq olunan testləri artıq yayımlayıb. İndi aplikantların əsas marağı imtahanların nəticələrini öyrənməkdir.

İmtahanların nəticələri nə vaxt yayımlanacaq sualına Milli İmtahanlar Mərkəzi cavab verib. Qurumun yaydığı məlumata əsasən, *"imtahanların nəticələri avqustun birinci yarısından yayımlanmağa başlayacaq"*.

Qeyd edək ki, cavablar mərhələli şəkildə yayımlanacaq və bütün fənn nəticələri eyni zamanda yayımlanmayacaq.

## İMTAHANDA İŞTİRAK EDƏ BİLMƏYƏN MÜƏLLİMLƏRƏ QEYDİYYAT ZAMANI ÖDƏDİKLƏRİ MƏBLƏĞ GERİ QAYTARILACAQMI?



Müəllimlərin fənn və peşə qabiliyyəti imtahanının əsas hissəsi artıq başa çatıb. İndi COVID-19-a yoluxduğu təsdiqləndiyinə görə testləri yaza bilməyən aplikantlar üçün imtahan təyin oluna bilər. Ancaq qeyd etmək lazımdır ki, bütün imtahanlarda testi yazmaq üçün imtahan mərkəzinə getməyən aplikantların sayı çox olub.

"Etaloni.ge"yə çox sayda müəllimin qeydiyyat üçün ödədikləri məbləğin (50 lari) geri qaytarılıb-qaytarılmayacağı ilə bağlı sualla müraciət etməsindən irəli gələrək, qərar verdik ki, açıqlama üçün Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinə müraciət edək.

Mərkəzin verdiyi məlumata əsasən, məbləği qaytarmaq üçün imtahan başlayana qədər vaxt elan edilmişdi. Həmin vaxt ərzində hər kəs ərizə yaza və qeydiyyata ödədiyi pulu geri qaytara bilərdi. Həmin vaxt isə başa çatıb. Ona görə də imtahanda iştirak etməmiş və ərizə yazmamış müəllimlərə ödədikləri məbləğ geri qaytarılmayacaq.

## KİM MƏKTƏBDƏ MANDATUR İŞLƏYƏ BİLƏR?



Kim məktəb mandaturu təyin oluna bilər? Təhsil müəssisəsində mandatur olmaq üçün hansı kvalifikasiya lazımdır? – Bu suallara cavab olaraq Mandatur Xidmətinin ətraflı təlimatını sizə təqdim edirik:

Təhsil müəssisəsinə mandatur olaraq məhkumluq həyatı yaşamamış, əmək qabiliyyəti olan Gürcüstan vətəndaşı təyin oluna bilər. Onun 21 yaşı tamam olmalıdır, tam ümumi təhsili, peşə təhsili və ya ali təhsili olmalı, dövlət dilini bilməlidir, vəzifə öhdəliyini yerinə yetirmək üçün müvafiq sağlamlıq vəziyyəti qaydasında olmalıdır. Qanunvericiliklə tətbiq edilmiş qaydada müsabiqədən və Gürcüstanın daxili işlər naziri, Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin birgə sərəncamı ilə təsdiqlənmiş hazırlıq kurslarını keçməlidir. Qeyd olunan kurslar təhsilin digər komponentləri ilə yanaşı şagirdin/tələbənin yaşına uyğun inkişafının qanuni ölçüsünü, təhsil müəssisəsi mandaturunun peşə öhdəliklərini, dəyərləri, fiziki hazırlığı və praktiki komponentləri də nəzərə alır.

*Əlavə məlumat almaq üçün: Telefon: (032) 2 200 220 (3012); (032) 2 200 220 (3013). E-mail: hr@mandaturi.gov.ge*

## ABŞ-DA MÜƏLLİMİN AYLIQ ƏMƏKHAQQI 7 MİN DOLLARDAN ÇOXDUR

Rəsmi göstəricilərə əsasən, ABŞ-da məktəb müəllimləri yüksək əməkhaqqı alırlar. Bu məbləğ ildə təxminən 62 min dollar təşkil edir. Son 10 ildə müəllimlərin gəliri 8 faiz artıb. Bu, müəllimlərə günü-gündən tələbin artması ilə izah edilir və 2030-cu ildə pedaqoqlar üçün artıq 77 mindən çox yeni vakansiya olacaq.

ABŞ-da ali məktəb müəllimlərinin illik əməkhaqqı 93 min dollardır (ayda 7780 dollar). Orta məktəb müəllimləri ildə 67 240 ABŞ dolları (ayda 5605 dollar), xüsusi müəllimlər isə ildə 65 920 dollar (ayda 5495 dollar) əməkhaqqı alırlar.

Bağça müəllimləri isə ildə 42 570 dollar (ayda 3550 dollar), onların köməkçiləri isə 31 500 dollar (ayda 2625 dollar) əməkhaqqı alırlar.

Ən çox işlə təmin olunan müəllim – 67 810 müəllim olmaqla Nyu-York ştatının payına düşür. Onların illik əməkhaqqı 88 890 dollar təşkil edir.

## MÜƏLLİMLƏRİN UCADAN DANIŞA BİLMƏDİYİ ÜÇ PROBLEMLİ MƏSƏLƏ



**Məktəbdə işləmək çox adamın arzusudur, çünki ilk baxışdan müəllimlik maraqlı peşələrdən biridir. Son illər ərzində müəllim ixtisası daha da prestijli olub. Buna səbəb isə stabil gəlir, peşə inkişafı və normal iş şəraitidir. Ancaq müəllimlik belə asandırmı?! Əgər daxili "mətbəxə" baxsaq, ola bilsin hər şey başqa cür görsənsin.**

***Məktəblərdə heç kimin ucadan danışa bilmədiyi çox şeylər baş verir. Ancaq müəllimlər "etaloni.ge" ilə şəxsi söhbət zamanı həmkarlar arasında baş verən problemlərdən danışıblar:***

**Rəqabət** – eyni fənn müəllimlərinin bir qismi bir-birini rəqib olaraq qəbul edir. Bunun iki səbəbi var. Birinci, hər biri daha yaxşı olmağa və həmkarından üstünlüyü ilə seçilməyə çalışır. İkinci, müəllimlər eyni zamanda repetitordurlar və məhz buna görə reputasiyalarının qayğısına ikiqat qalırlar. Onlar üçün şagirdlərin onların yanında hazırlıq keçmək istəyi və rəqib müəllimi seçməməsi mühümdür. Qeyd edək ki, sağlam rəqabət rəqibləri gücləndirir, amma təəssüf ki, bəzən həmkarlar başqasının reputasiyasına zərər vurmaqla özlərinə "xal qazanmağa" çalışırlar.

**Status** – müəllimlər arasında növbəti mübahisə səbəbidir. İllah da ki, bu status kreditlərin toplanması ilə əldə edilibsə. Baxmayaraq ki, kreditlər vasitəsilə status qazanmaq imkanını nazirlik özü müəllimlərə verib. Kompetensiyanı təsdiq etmək üçün imtahanı uğurla vermiş müəllimlər "1 kreditli" və eyni zamanda statuslu müəllimləri özləri ilə bərabər hesab etmirlər. Çünki onlar tədris etdikləri fənn üzrə kompetensiyalarını təsdiq etməyiblər. Digər tərəfdən isə statusunu yüksəltmək istəyən və peşəsində inkişaf etməyin qayğısına qalan müəllimlər bulinq qurbanı olurlar. Belə müəllimlər ambisiyalı hesab olunurlar və sanki hamı nə zaman "onların tərpənib" məğlub olacaqlarını gözləyir.

**Saatların bölünməsi** – bu məsələ hər tədris ili başlayana qədər mübahisə doğurur. Baxmayaraq ki, status əlavəsi almaq üçün müəllimlərə 15 saat, ibtidai sinif müəllimlərinə isə 13 saat yetərlidir, pedaqoqlar həmişə daha çox yük götürmək istəyirlər ki, əməkhaqları da çox olsun. Buna görə də saatların bölünməsi müəllimlər arasında tez-tez narazılıqlara səbəb olur. Bəzi məktəblərdə rəhbərliyin kimə neçə saat veriləcəyinə qərar verməsi məsələni daha da ciddiləşdirir.

Əlbəttə, sadalanan problemlər bütün məktəblərdə eyni ciddilikdə deyil və bütün müəllimlər də qeyri-kollegial deyil. Ancaq faktdır ki, qeyd olunan mövzular məktəblər üçün yad deyil və bəziləri siyahıda öz iş mühitini tanıyacaq.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**



# ENERCAYZER

Əziz oxucum! Budəfəki mövzu seçimimi müəllimlikdən yana etmək istəyirəm. Yarım saatdan artıq olar ki, qələm əlimdə mövzuya necə giriş edəcəyimi düşünürəm. Ağlıma bir fikir gəlmədiyindən deyil, bu müqəddəs peşəyə, bu ali dərəcəyə layiq cümlələr qurmağın acizliyidir mənimki. Elə bu səbəbdən də, bəşəriyyətin inkişafının, insanlığın varlığının kəskin asılı olduğu müəllimlik haqqında minlərlə söylənmiş dəyərli kəlamlardan yalnız bir neçəsini, icazənizlə, nəzərinizə çatdırardım: “Mənə bir hərf öyrədənin köləsi olaram” (Hz. Əli), “Müəllim bir şama bənzər, özünü əridərək başqalarına işıq verər” (M.K.Atatürk), “Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz” (Sokrat), “Müəllimlərdən işgəncə görməyən, həyatda zülm çəkər” (Adolf Disterverq).

Həə, biri işgəncəmi dedi?! Əstəğfürullah, elmi-gumanım çatmır, qətiyyən mənə aid deyil, rəhmətlik Adolf deyib. Bilməyib ki, zəmanə elə dəyişəcək ki, nəinki işgəncə, müəllim sinifdə səsini belə yüksəldə bilməyəcək. Çox da uzaq keçmiş olmasa da, o vaxtlar müəllim dərsdə üzümüzə səmitsiz baxsa, 2-3 gün evdəkilərin üzünə çıxa bilməzdik. Dərdi-sərdə qalardıq ki, görəsən valideynimizlə danışıbmı. İndi, vallah, valideyni görəndə “bismillah” deyib keçirik ki, olmaya dərsdə gözümüz yol çəkmiş olar, uşaq elə bilər ona baxırıq. Nəsə demək istəyirik. Təbiidir ki, bunlar yarızarafat, yarıgerçək fikirlərdir (hansı ki, düz sözü də zarafatda deyərlər, deyib atalarımız...) Nə isə, mətləbdən çox kənara qaçmayaq.

Yeni təhsil sistemimiz, qaydalar, əlbəttə ki, heç bir təhsil ocağında nə yüzdəyüz mənfi təsir edə bilməz, nə də ki, yüzdəyüz müsbət nəticə verə bilməz. Ancaq yeniliklərlə, fərqliliklərlə dolu bu sistem, təbiidir ki, şagirdlər, eləcə də müəllimlər tərəfindən maraqla qarşılanır. Şagirdə yönəlmiş təhsil, oyunlarla öyrənmə, şagirdin maraqlarını maksimum nəzərə alma, əməkdaşlıq, dostluq, sosiallaşma və s. Nisbətən yaşlı nəslin xətrinə dəyməsin, amma, zənnimcə, yeni sistemi gənc və ortayaşlı kadrlar daha yaxşı mənimsəyir və uğurla istifadə edir. Yaşlı nəsil üçün isə nisbətən fərqli proqramların təşkili, məncə, daha səmərəli olardı, hansı ki, tədris etdiyi fənn üzrə yetərincə savadı var, amma yaşından irəli gələrək gürcü dilini öyrənmək onlar üçün başlıca problem sayılır. Elə hər il müəllimlərin sertifikat imtahanında on minlərlə müəllimin iştirakı buna əyani sübutdur.

Nə olacaq, insanıq, bir yandan təkmilləşmək arzusu, bir yandan da maaş artımı eşqi ilə bu il də imtahanlara qoşulduq. Bir ay, 10 gün, bir həftə deyərkən böyük gün gəlib çatdı. Doğrudan da çox mükəmməl, bütün təhlükəsizlik qaydalarına riayət olunmuş bir şəraitdə yerimizi aldıq. Ömrümüz imtahanlarda keçməsinə baxmayaraq, həmişəki kimi həyəcanla bir təhər adımı, soyadımı yazıb keçdim yerimə. O dəqiqə nəzarətçi müəllimlər bütün qaydalarla tanış etdilər, hər şeylə maraqlandılar, həyəcanım bir az yatışdı. Özümü toplayıb bir təhər başa saldım ki, bəs mən bu açıq suallara cavabı öz ana dilimdə yaza bilərəmmi, sağ olsunlar, onda da izin verdilər (axı iki ay idi, bu, beynimdə dolaşan başlıca problem idi, hələ səhər-səhər xeyir-şər eyləməmiş qarasınca atıb tutmuşdum ki, belə də işmi olar, axı bizə Gürcüstan qanunvericiliyi ilə filan maddənin filan bəndinə görə, öz ana dilimizdə imkan verilməlidir, bu diskriminasiyadır). İndi qalmışdı bircə yazmaq. Nə isə, 4 saatdan sonra, necə deyərlər, “işıqlı dünya”ya çıxdıq. Məktəbin həyatində hamımız “professor” kəsildik. Hər başdan bir ağıl, hər ağızdan bir səs çıxdı. Diqqətimi çəkən isə 75 yaşı olduğunu deyən qocaman bir ağsaqqal baba oldu. Əsasına söykənib sakitcə dedi: “Bala, mənə hazırlıq kursunda dedilər ki, enercayzer üsullarından istifadə edin, məsələn, dərsə girdin, əvvəlcə sinfə bir top tulla, uşaqlar iki dəqiqə açılışsın, sonra başla dərsə. Ay sizə qurban, mən o topu uşaqdan alamı bilərəm ki, dərsə də başlayam?!”

Sualı sanki ayrılıqda hamımıza yönləndirdi, biz gənc “professorlardan” fikir uman kimi. O an hamımız susmuş, sanki neçə alimlər, həkimlər, müəllimlər yetişdirmiş bu qoca çinarın sualı qarşısında aciz qalmışdıq.

Yol boyu həmin səhnəni unuda bilmədim, bir müəllimin çarəsizliyimi, üsyanımı idi bu, yoxsa işgəncəsimi idi ki, yaşının bu yerində hansı səbəbdən bu zülmü çəkirdi?!

**Lətafət KƏRİMOVA**
*Mollaoğlu orta məktəbinin tarix fənni üzrə baş müəllimi*

# QARA ŞÜŞƏLƏRİ OLAN PƏNCƏRƏLƏR



Bir çox insan var ki, yaşadığı zamanədən şikayətçidir. Hamı daha yaxşı gələcək arzulayır. Kim daha aydınlıq sabahlar istəməz ki? Amma problem ondadır ki, insanlar yalnız istəyirlər, buna nail olmaq üçün addım atmırlar. Bəzi insanlar geridə qalan zamanənin düşüncələrini ağıllarına mismarlayıb yenə gələcəkdən, inkişafdan danışırlar. Bu insanların pəncərələrinin şüşələri qara rənglidir, buna görə də içəri işıq düşmür. Belə olan halda onlar gələcəyə açılan qapının açarını tapa bilmirlər. Həmin açar isə biz gənclərik. Cəmiyyətimizi inkişafa aparacaq qapını açacaq olan bizlər. Amma bizim də qarşımızda qaranlıq yollar var. Bu yolları getmək üçünsə işığa ehtiyacımız var və bu işığı isə yandıracaq olan yenə cəmiyyətdir. Bu gün cəmiyyət bizə kömək etməlidir ki, biz onlara aydınlıq sabahlar bəxş edək. Bunun üçün isə bir neçə fikrin mismarını çıxarmaq lazımdır.

Bunlardan biri “bizim zamanəmizdə...” fikridir. O zamanəni görmədiyimiz üçün bizim o dövrlə bağlı heç bir təsəvvürümüz yoxdur. Əlbəttə, hər zaman olduğu kimi o dövrün də mənfi və müsbət tərəfləri vardır. Hətta müsbət cəhətləri çox ola da bilər. Amma onu da yaddan çıxarmayaq ki, zaman deyilən mexanizm irəliləməyi sevir. Ona görə də keçən zamanəyə ilişib qalmaq bizi yalnız geridə qoymağa yarayar.

İkinci, “indinin gənclərinin tək bildiyi ancaq telefondur, internetdir” fikridir. Hər bir dövrün öz tələbi olduğu kimi bu dövrün də tələbi internet və telefondur. Biz isə yalnız tələbi ödəyirik. Doğrudur, bəzən bunlarla çox vaxt keçiririk, amma tək bildiyimiz də bunlar olduğunu demək düzgün deyil. Unutmayaq ki, texnologiyanın da ondan düzgün istifadə edənə faydası böyükdür.

Üçüncü, “özünə düz-əməlli iş tap” fikridir. Nədənsə insanlar inkişafı həmişə maddiyətdə görürlər və həmişə gəliri çox işlərə üstünlük verirlər. Övladlarının da həkim, mühəndis, proqramist və s. kimi peşələrə yiyələnmələrini istəyirlər. Məktəbi bitirib universitetə hazırlanan bir gənc üçün veriləcək ən yaxşı tövsiyəni “a bala, sən get bu peşəni oxu” sayırlar. Əgər gəncin istəyi rəssam və ya aktyor olmaqdırsa onda bəzi valideynlərdə üçüncü fikir yaranır. Onu da deyim ki, cəmiyyətimizdə qəribə bir xüsusiyyət var. Xarici rəssam, müğənni və aktyorları sevərək izləyib dinləyirlər, lakin iş bizə gəldikdə əməyi düzgün qiymətləndirmirlər. “O işdə pulmu var”, “camaat nə deyər”, “xalxın uşağı müəllim olur...” kimi cümlələr heç də bizə yad deyil. İndi gəlin həkim, mühəndis kimi gəliri çox olan peşə sahibi insanlardan ibarət olan cəmiyyətə baxaq. Məncə, bu dadsız bir yemək olardı. Necə ki yeməyə dadını verən duz və başqa ədviyyatlardır, həyata dad verən də incəsənətdir. Bunu sevən və bu peşəni seçmək isə istəyən hər bir gəncin haqqıdır.

Bu üç fikrin mismarını çıxardıqdan sonra gərək onların yerini boş qoymayaq. Amma gəlin bu dəfə fikir yerinə ağlımıza yeni əməllər mismarlayaq. Çünki fikir canlanıb əmələ çevrilməlidir ki, məqsədə çataq. Əvvəlcə gənclərə öz düşüncə tərzimizi aşılamamaqla başlayaq. “Biz belə böyümüşük, belə görmüşük, sən də belə olmalısan” yox “bizim edə bilmədiyimizi sən etməlisən” olmalıdır. Daha sonra gənclərin istək və arzularına, qərarlarına hörmətlə yanaşmaq, öz seçimlərini etməsinə imkan vermək lazımdır. Böyüklərin vəzifəsi gənc nəslə düzgün yol göstərməkdir, yolu kəsmək yox. Son olaraq isə gəncləri dəstəkləmək, onları ruhlandırmaq, imkan yaratmaq lazımdır. Tutaq ki, gənclər kiçik bir tamaşa və ya sərgi, ədəbi gecə, kiçik bir konsert hazırlayıblar. Burada ilk öncə valideynlər və müəllimlər iştirak etməlidir. Sonra qohum, qonşu və başqaları da cəlb olunacaqlar. Əgər cəmiyyət biz gəncləri dəstəkləsə, biz də gələcəyə inamla addımlayar, istər rəssam olaq, istərsə də həkim, öz işimizdə uğurlar qazanarıq. Ona görə də pəncərələrdən qara rəngli şüşələri çıxaraq, çıxaraq ki, günəş işığı öz işini görsün.

**Çiyalə Osmanova**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

İndi yenə qayıdaq Aruzun itmiş kiçik oğluna. Belə ki, onu şir tapır və böyüdür. Çobanlar "aslanın" qəribə davranışını və insani ədalarını sezdilər. Onda Aruz deyir ki, o, mənim itirdiyim oğlumdur və evə aparır. Lakin uşaq onun yanında qalmır və şirin yuvasına qayıdır. Onu yenə tutdular, geri gətirdilər. Dədə Qorqud gəldi, oğlanın adını Basat qoydu və beyninə yeritdi ki, o, inasandır və heyvan deyil.

Elə burada Aruzun çobanı Qonur qoca Sarımın pəriyə necə təcavüz etdiyinin verildiyi ikinci epizod nəql olunur. Pəri uçub getdi, amma çobana dedi ki, il tamam olacaq bulaq başına gəl, məndə əmanətin var, gəl al. Amma Oğuzun başına zaval gətirdin. Çoban da ilin başında bulaq başına gedir və nəsə parıldayan bir yığanağı görür və bu da ki, vurulan zərbədən tədricən böyüyürdü, nəhayət, partladı və oradan balaca bir oğlan doğdu ki, bədəni insan bədəni idi, alnında isə bir gözü var idi.

İndi bir neçə söz də bu epizodlar barəsində. Birinci epizodda itən kiçik oğlana aslan süd əmizdirir və böyüdür. Bu cür epizod totem mənşəyi ilə əlamətdar olan qədim rəvayətlərdə bizə tez-tez rast gəlir. Xüsusən qəhrəmanın vəhşi südü ilə böyüdüyü fakt artıq öz-özlüyündə onun fiziki gücündən xəbər verir, illah da, deməkmümkündür ki, ona görə yenilməzdir ki, yenilməz heyvanın böyütdüyüdür və onun həyatı ilə təndir. V.Rubenin (C.Ğuben) öz-özlüyündə türk tayfası üçün canavara nisbətən cinsin əcdadı (ilkin anası) kimi aslanın az xarakterik olması qeydi konkret halda heç nə ifadə etmir və nəzərə alınmamalıdır. Və, budur, niyə, birincisi, şir və pələng güc rəmzi olaraq türkdilli folklorda, eləcə də "Dədə Qorqud"un qarşıdakı boyunda aydınca özünü göstərir. İkincisi də, heyvanın yanında böyüyən yenilməz qəhrəmanın simasına qədim vaxtlardan bəri bir çox xalqın və o cümlədən türkdilli folklorda da rast gəlirik. Və üçüncüsü, ən başlıcası, bu cür qəhrəmanın təsvir olunmasının ən yaxşı nümunəsi və növü qədim Şumer eposu olan "Bilqamıs"ın əsas personajlarından biri, heyvanlar yanında böyüyən, bununla da əzəmətli gücə malik olan və yalnız fahişə qadının qılığı ilə insanlığa və ictimaiyyətə qayıdan Enkidudur. Odur ki, tamamilə təbiidir ki, əgər yol versək, yuxarıda adı çəkilən epizodun şaxələnən qədim Oğuz xalq rəvayətlərində də kökləri vardır. Elə burada artıq olmaz, vurğulayaq ki, Oğuz tayfaları öz həyat tərzilə ev heyvanları ilə sıx əlaqədar idi – at ilə, dəvə ilə, qoyun ilə və təəccüblü deyildir ki, yuxarıda xatırlanan heyvanların adı Oğuz xalq bədii kətanında aydın şəkildə təsvir olunmuşdur. Cins bədöy at xüsusilə dəyərləndirilirdi. Belə ki, onun xüsusiyyətləri və rəngi də çox hallarda elə qəhrəmanın özünün igidliyini müəyyən edirdi. Buna görə də "Dədə Qorqud"un bütün adlı-sanlı qəhrəmanı daim öz kəhər atı ilə birgə xatırlanır. Eləcə də, təbiidir ki, oğuzlar köçəri həyat tərzi zamanı vəhşi heyvan ilə savaşmalı olurdu və təbii ki, onların gücünün əhəmiyyətini də yaxşı anlayırdılar.

İkinci epizoda gəldikdə isə, çobanın pəri ilə yaşaması da folklorda müxtəlif variantlarla yayılmışdır ki, buna da uyğun olaraq qəhrəman bakirə-quşla cinsi əlaqəyə girir. Yuxarıda xatırlanan pəri də qanadlı məxluqdur, bu da ki, insana xoşbəxtlik də gətirə bilər, bədbəxtlik də. Çobanın onu zorlamasına görə oğuzları bədbəxtliyə düçar edir.

Lakin ona kimi Aruz Basatla birgə böyüməsi üçün yeni doğulmuş Təpəgözü evə gətirir. Onun üçün dayə gətirəndə ona elə gəldi ki, südü soğuldu və üçüncü dəfə əməndən sonra dayənin canını aldı. Ona bir gündə bir qazan süd yetmirdi. Sonra böyüyüb uşaqlarla oynayanda bəzisinin burnunu yedi, bəzisinin qulağını. Aruz onu yaxşıca döydü-söydü, yasaq elədi, lakin o öz dediyindən dönmürdü və Aruz onu evdən qovdu.

Bu zaman Təpəgözün anası pəri uçaraq gəldi, öz oğlunun barmağına üzük taxtı və ona dedi ki, ox və qılınc sənə heç nə edə bilməyəcək.

Təpəgöz oğuzlardan qaçdı və uca bir dağa vardı. O, oğuzları qırıb batırırdı. Oğuzlar yeddi dəfə yerlərindən tərpənib başqa yerə getmək istədilər. Lakin Təpəgöz yeddi dəfə də onları geri qaytardı. Bir əlac bulmaq üçün Dədə Qorqudu göndərdilər. Onunla bu şərtlə razılaşdı ki, hər gün iki adam, beş yüz qoyun gətirməli idilər.

Nəhayət, qoca qarı öz müsibətini danışır və yeganə oğlunu xilas etmək üçün Basata xahişlə müraciət edir. Qarının müsibətindən sarsılan Basat Təpəgözlə mübarizə aparmaq qərarına gəlir. Qazan ona izah edir ki, o lənətə gəlmişlə mübarizə aparmasın, məğlub edə bilməyəcəkdir və qoca qarının zarımasına qulaq asmasın. Lakin oğlan öz dediyinin üstündə durur.

Sonra onlar arasında savaş başladı. Basatın atdığı oxları Təpəgöz milçək hesab edirdi. Sonra qalxdı, Basatı tutdu, çəkməsinin boğazına soxdu və qocalara tapşırdı ki, nahar üçün onu yaxşı qızardın. Basatın xəncəri var idi və oradan çıxdı. Qocalardan soruşdu ki, bu vəhşini nə öldürər. Onlar da cavab verdilər ki, onun gözündən başqa heç yerində ət yoxdur. Basat Təpəgözün qızmış şişlə gözünü oydu. Kor olmuş Təpəgöz mağaranın qapısının ağzını kəsdirdi. Əli ilə yoxlayaraq yalnız qoyunları buraxırdı. Basat qoyun dərisini Təpəgözün önünə dürtür, özü isə paçasının arasından sivişib çıxır.

Onlar arasında dialoq baş verir. Təpəgöz ona möhürünü, xəzinəsini və sehirli qılıncın qınını görməyi məsləhət görür. O, irəlicədən düşünülmüş hiylə ilə onu ələ keçirmək istəyir. Lakin Basat hər bir qurulan hiylədən boyun qaçırır və Təpəgözün "yenə qurtuldunmu" sualına, eyni bir cavab verir: "Tanrım qurtardı". Bu da, ümumiyyətlə, bizə xatırladır ki, hər şeyə qadir olan Tanrı sənə yardım etməsə yaramazlığı məğlub etmək mümküm deyildir.

Nəhayət, Təpəgöz öz ala gözünü dözülməz ağrılara görə ağlayır. Sonra Basatdan soruşur ki, haralısan, sənin atan-anan kimdir, kimsən və vurğulayır ki, alp ərən öz adını gizlədərsə ayıbdır. Basat da cavab verir: "Qalıb duracağım yer Günortacdır, mənim xanım Bayandır xandır, bizim döyüşdə öndə gedən Salur oğlu Qazan, atamın adı Qaba Ağac, anamın adı Qağan Aslan, mənim adım isə Aruz oğlu Basatdır". Onda Təpəgöz deyir: "Biz ki, qardaş imişik, öldürmə məni". Lakin igid onun söylədikləri dəhşətləri xatırladır və sənin başını qılıncla kəsməyincə, al qanını yerə tökməyincə rahatlana bilmərəm deyir. Onda Təpəgözə bircə o qalır ki, öz gözünə və öz taleyinə ağlasın:

***"Ağ saqallu qocaları çoq ağlatmışam.***
***Ağ saqalı, qarışı tutdı ola, gözüm, səni!***
***Ağ birçəklü qarıcıqları çoq ağlatmışam.***
***Gözi yaşı tutdı ola, gözüm, səni!***
***Bığçağı qararmış yigitcikləri çoq yemişəm.***
***Yigitlikləri tutdı ola, gözüm, səni!***
***Əlcügəzi qınalı qızcığazları çoq yemişəm.***
***Qarışçuları tutdı ola, gözüm, səni!***
***Eylə kim çəkərəm mən göz bunını,***
***Heç yigidə verməsün***
***Qadir Tanrı göz yükini!***
***Gözüm, gözüm, ay gözüm!***
***Yalnuz gözüm! – dedi"*** *(D.D.K., səh. 140; D.D.K., səh. 114; O.D.D.K.K., səh. 165-166).*

Basat bunu dinləyə bilmədi, Təpəgözü dəvə kimi dizə çökdürdü və öz qılıncı ilə boynunu vurdu.

Dədə Qorqud gəldi, şad xəbər söylədi və Basata alqış etdi.

***

Doqquzuncu boy **"Bəkil oğlu İmranın boyu"**nun motivi ənənəvidir: oğul öz şücaəti ilə atasının ləyaqətini qorumaq üçün mübarizə aparır. Ümumiyyətlə, "Dədə Qorqud"un boylarının əksəriyyətinin mövzusu bu prinsip üzərində qurulub: ya ata (ya ana) oğlunu əsirlikdən xilas edir və ya əksinə. Eyni zamanda nəsillərin dəyişməsi prosesi də özünü göstərir və belə mühakimə edin, hərdən gənc nəsil öz üstünlüyünə işarə edir. Budur, məsələn, əvvəlki yeddinci boyda Yegnək öz dayısı Əmənlə söhbət edir. O, bu niyyətdən əl çəkməsini tövsiyə edir, çünki, o, "çölün canavarları"na bənzəyən öz pəhləvanları ilə və onu müşahidə edən igidlərlə yeddi dəfə qalanın alınmasına cəhd etsə də, hər halda ala bilmədi. Buna Yegnək belə cavab verir: Məğlubiyyətə səbəb boy-buxunlu igidlər əvəzinə onun yanında "beşaxçalıq" qorxaq süvarilər var idi və ümumiyyətlə, bildirməyən və düşməndən uzaq duran kəs igiddir. Bu cür kobud dəyər oğuzların ənənələrinə uyğun olaraq böyüklərə qarşı səhlənkarlıq, hörmətsizlik idi. Doğrudur, bu söhbət yuxu forması ilə təqdim olunub, lakin o dövrlər yuxu həqiqətin əksetdiricisi kimi başa düşülürdü və bu bir növ qarşıdurma bu təhlil olunan boyda da nəzərə çarpır.

Qısası, Bayandır xan hiss edir ki, "Doqquz tümən Gürcüstan xəracından" bir at, bir qılınc, bir çomaq gətirdilər. Bu artıq biabırçılığın əlaməti idi və xan Gürcüstanla hüdudu gücləndirmək qərarına gəlir. Qaravulçuluğa yalnız xana sonsuz sədaqətli olan bir igid – Bəkil razılaşdı. Halbuki, ov zamanı Bəkil "onunla fərqlənirdi ki", yay qurmadan, ox atmadan yayı biləyindən çıxarıb buğanın-sığının boynuna atar, çəkib qaldırardı. Arıq olsa qulağını dələrdi ki, ovda bəlli olsun, amma kök olsa boğazlayıb kəsərdi.

Qazan xan bu peşəkarlığa görə, ondan soruşdu ki, bunu atınmı ayağına yazaq, yoxsa ərinmi? Hamı yekdilliklə ərin hünəridir dedi. Lakin xan dedi ki, at işləməsə, ər öyünməz. Hünər atındır. Bu sözü Bəkil özünə təhqir və adına ləkə atmaq kimi hesab etdi. Bayandır xanın bəxşişini ayağının altına atdı və öz igidləri ilə birlikdə oranı tərk etdi, evə qəmgin halda qayıtdı. Heç kimə cavab vermirdi: lal və kar idi. Xatunu onun "qaşqabaqlığının" səbəbini bilmək istəyirdi. Bəkil də cavab verdi:

***"Qalbuqanı yerimdən durı gəldim.***
***Yelisi qara Qazılıq atın butun bindim.***
***Arqu beli Ala dağdan dünin aşdım.***
***Aqındılı görkli suyı dəlüb dünin keçdim.***
***Ağ alınlu Bayındırın divanına çapar vardım.***
***Ala gözlü bəğlərlə yedim-içdim.***
***Qövmlü qövmiylə görklü gördüm.***
***Eli-güni köçürün,***
***doquz tümən Gürcüstana gedəlim!"***
***Oğuza asi oldum, bəllü bilin! - dedi"*** *(D.D.K., səh. 144; D.D.K., səh. 117; O.D.D.K.K., səh. 169).*

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:

**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## MƏİŞƏT
## 18. HOLLAND PENDİRİNİN SİRRİ



*(əvvəli ötən sayda)*

İndi isə dünyaca məşhur və heç bir rəqib tanımayan holland pendiri haqqında danışım. Niderlandda elə bir market olmaz ki, orada ayrıca bir pendir bölümü olmasın. Supermarketlərin böyük bir bölümü yalnız çeşidli holland pendirlərinin satışı üçün nəzərdə tutulur. Bu bölüm müştərilərin ən çox üz tutduğu hissədir. Bütün Niderland miqyasında yalnız pendir satışı ilə məşhur olan xüsusi mağaza şəbəkələri də fəaliyyət göstərir. Bu dükanlarda müştərilərə pendirlərin dadına baxaraq seçmək imkanı da verilir.

Pendiri birbaşa istehsalçının özündən də ala bilərsiniz. Yüz illər boyu ailələrin özlərinə məxsus pendir resepti, pendir hazırlama ənənəsi qorunub saxlanır. Pendir istehsalı ilə məşğul olan ailələrin dədə-babalardan qalma ənənəvi reseptləri məslək sirri kimi gizli saxlaması da bəllidir. Əlbəttə, burada da almaq istədiyiniz təamın dadına baxmaq, bəyəndiyiniz çeşidi seçmək imkanı yaradılır. Ölkənin Alkmar, Qauda, Edam kimi şəhərlərində yaradılmış tipik orta əsrlər ticarət mərkəzlərinin pendir bölümlərində xüsusi geyimli pendir satıcılarından da bu məhsulu əldə etmək mümkündür. Buna da pendir turizmi deyək. Niyə də olmasın, adamlar həm məhsullarını tanıdır, həm də satırlar. Delftin Bazar meydanında gördüyüm pendir dükanının girişində yəqin ki, müştərilərin diqqətini cəlb etmək üçün qaralı-ağlı holland inəyinin heykəlinin qoyulduğunu da demədən keçməyim. Venloda insanların istirahət və alış-veriş üçün üz tutduğu əski şəhər meydanında da xüsusi pendir dükanı müştərilərin xidmətində idi. Amsterdamda mövcud olan Pendir muzeyində siz müftə pendirlərdən dadmaq imkanı qazanırsınız, bəyəndiyiniz pendir çeşidlərindən də seçib ala bilərsiniz. Niderlandda pendir tapmaq problem deyil, amma öz zövqünə uyğun pendir tapmaq yəqin ki, çətindir. Nədən ki, holland pendirinin çeşidləri heyrətamiz dərəcədə çoxdur. Burada hər pendirin öz dadı, öz adı var. Pendir alanların hansından alım, hansını seçim sualını təkrar-təkrar özlərinə verməsi çox təbiidir. Bəzən bunun üçün kiminsə köməyinə ehtiyac da duya bilərsən.

Pendir vitrinlərdə böyük başlar şəklində düzülsə də, müştərinin onu kəsdirib almaq imkanı var. Böyük başlardan, adətən üçkünc şəkildə kəsilmiş kiçik parçalar xüsusi vitrinlərə düzülür, müştərilər oradan istədikləri çeşid pendir parçasını seçib götürürlər. Təkrar kimi səslənsə də, Niderlandın pendir bazarı çeşidlərinin zənginliyi ilə məşhurdur. Hər insanın zövqünə, damaq dadına, büdcəsinə uyğun pendir tapmaq mümkündür. Plastik qablarda təqdim olunan pendirlərə daha çox rast gəlinir. Metal qutularda, şüşə qablarda satılan bir çox pendir növləri ilə də qarşılaşa bilərsiniz.

Niderland dünyanın ən böyük pendir istehsalçısıdır. Bunun mübalğəsiz belə olduğunu ölkənin pendir ticarətindən, onun ixracından hər il milyardlarla gəlir götürməsi də təsdiq edir. Süd məhsulları ixracatının 80 faizini pendirin müxtəlif çeşidləri təşkil edir. Ölkədə yüzlərlə pendir istehsal edən ailə var. Hər bir ailə hazırladığı məhsulun texnologiyası barədə ənənələri qoruyub saxlamağa çalışır. Əsrlər boyu yaranmış ailə ənənəsi qorunduğu kimi, hər bir ailə bu məsləyə aid sirləri də gizli saxlamağa çalışır. Ölkədə 450-yə yaxın pendir növünə rast gəlinməsi də buradan qaynaqlanmalıdır.

Pendir təzə inək südündən hazırlansa da, ona qatılan əlavələr hər çeşidə xüsusi dad verir. Hazır olma müddətinə görə də pendir çeşidləri bir-birindən fərqlənir. Pendirlər hazır olma yaşlarına görə təzə və köhnə pendirlərə ayrılır. Elə məhsul var ki, bir neçə aydan sonra istifadəyə yararlı olur. Belə pendirlər təzə hesab edilir. Elə çeşidlər də var ki, onların istifadə edilməsi bir ildən, ilyarımdan, hətta iki ildən sonra mümkün olur. Bu pendirlər isə köhnə, yetişmiş hesab olunur.

Niderlandda pendiri təkcə inək südündən hazırlamırlar. Keçi südündən hazırlanan pendir çeşidləri də çoxdur. Düzdür, bu pendirlər inək südündən hazırlanmış məhsullar qədər məşhur olmasalar da, onların müştərilərinə də sıxsıx rastlaşmaq mümkündür.

Holland pendirləri yağlılığına görə də bir-birindən fərqlənir. Yağlı, az yağlı, yağsız pendir növləri var. Hər pendirin öz adı olduğunu demişdim. Məsələn, "Qauda", "Maasdam", "Bemster", "Leidse", "Boerenkaas" və s. bunların hər biri bir markadır. Belə demək mümkünsə, pendir Niderlandın strateji məhsuludur. Bunun belə olduğunu bir qədər yuxarıda verdiyim rəqəmlər də təsdiqləyir. Bunun dövlət əhəmiyyətli bir məsələ olmasını ölkədə "Kral" pendirlərinin istehsalı da sübut edir. Kraliça Beatriks dövlət qarşısında pendirçilik sahəsində göstərdiyi xidmətlərə görə, FRİKO şirkətinə öz məhsullarının önünə kral sözünü əlavə etmək imkanı verərək, bu şirkətin pendirlərinin daha da məşhurlaşmasına şərait yaratmışdır.

Hollandların pendir istehsalına bələd olmaları tarixin dərinliklərinə gedib çıxır. Onların pendirin hazırlanmasını romalılardan mənimsədikləri söylənir. Bu, miladdan öncə birinci əsrə təsadüf edir. Hollandlar romalılardan öyrəndikləri pendir hazırlama texnologiyasını durmadan təkmilləşdirərək, bu sahədə öz ustadlarından çox-çox irəli gedə bilmişlər. Ümumiyyətlə, pendirin tarixini minilliklərin dərinliklərində axtarmaq gərəkir. Bu məhsulun maldar tayfaların icadı olması şəksizdir. Ev heyvanlarının əhliləşdirilməsi ilə onların südündən müxtəlif məhsulların hazırlanmasına da start verilmişdir. Bu məhsullar arasında pendirin də xüsusi rolu olmamış deyil. İlk pendir harada hazırlanmış, ilk istehsalçılar kimlər olub kimi suallara cavab vermək çətindir. Tarixən heyvandarlıqla məşğul olan bütün xalqlar buna iddia edə bilərlər. İddiaçılar arasında türk xalqları da var. Yazıyaqədərki tarixi dəlillər bu suallara cavab vermək üçün yetərli deyil. Ancaq yazılı tarixdən pendirlə bağlı örnəklər tapmaq mümkündür. Homer özünün "Odisseya" əsərində pendirin Yunanıstana Misirdən gətirildiyini söyləyirdi. Yunan tanrılarından Hefestin pendirin sirlərini Krit adasının sakinlərinə öyrətdiyi barədə əsatir də yaranmışdır. Yunanların tanrıları razı salmaq, onlara təşəkkür etmək üçün nəzir olaraq baş pendir verdikləri də bəllidir. Romalılar pendiri "möcüzə məhsul" adlandırırdılar və bu məhsulun hazırlanması üçün evdə xüsusi mətbəx belə inşa edirdilər. Rusiyada pendirin dəbə minməsi I Pyotrun adı ilə bağlıdır. Gəmiçiliyi öyrənmək üçün Hollandiyanın Saardam şəhərinə gələn rus çarı burada pendirə məftun olur, ölkəsinə döndükdən sonra onu süfrələrindən əskik etmir.

XVII yüzilliyi Niderlandın qızıl dövrü hesab edirlər. Bu dövr bir çox yenilikləri ilə yaddaqalandır –dənizçiliyin, kənd təsərrüfatının, ticarətin inkişafı əsridir. Bu əsri həm də Niderlandın "pendir əsri" hesab edə bilərik. Həmin əsrin başlanğıcında gəmilərinin sayını 10 minə çatdıran ölkə qısa müddət ərzində dünyanın dörd bir yanı ilə ticarət əlaqələri qura bildi. Gediş-gəlişin sürət qazanması ilə ölkədə pendir istehsalı da artdı və holland pendiri özünün dünya səyahətinə başladı. Elə bu vaxtdan etibarən pendir istehsalçıları yeni-yeni çeşidləri sınaqdan keçirib, pendir bazarına yeni məhsullar çıxardılar. Yelkənli gəmilərlə dünyanın hər tərəfinə aparılan pendirlər arasında bu gün də alıcıların sevərək aldıqları "Edamar" pendiri kürə formasında hazırlanırdı. Bu pendirlərin yelkənli gəmilərlə daşınması rahat olurdu. Süfrələri bəzəyən bu pendirdən bir zamanlar top mərmisi kimi də istifadə olunub. Dəniz quldurlarının hücumlarına məruz qaldıqda holland dənizçilər satış üçün nəzərdə tutulan bu kürə formalı pendirlərdən mərmi kimi istifadə edərək, bu mərmi pendirlərin köməyilə hücumun qarşısını alırdılar.

Holland pendirinin dadına, keyfiyyətinə, görünüşünə görə bir-birindən fərqlənən onlarla növünün olduğunu artıq bilirik. Niderlandda pendirləri növündən, çeşidindən asılı olaraq çiy, bişirilmiş halda və ya içkilərin yanında desert kimi istifadə edirlər. Yüz eşitməkdənsə, bir dəfə dadına baxmaq məsləhətdir.

Son illər Tiflisdə pendir bayram-yarmarkalarının təşkili ənənə halını almaqdadır. Bunu Gürcüstanın bu istiqamətdə atdığı ilk uğurlu addımlar hesab etmək olar.

Ağartının, xüsusilə də pendirin bizim süfrələrin də vazkeçilməz ünsürü olduğunu bilirik. Hətta pendirsiz süfrənin yarımçıqlığını da dilə gətirənlərimiz var. Süfrələrimizə quş iliyi, can dərmanı hər cür təam düzməmizə baxmayaraq, süfrədə pendir olmasa, onun çatışmazlığı dərhal hiss olunur. Bura qədər hər şeyimiz gözəl. İnəyimiz, qoyunumuz, keçimiz olmasına rəğmən biz dədə-babalarımızdan qalma reseptlə iki cüt, bir tək pendir hazırlaya bilirik. Bizim yeniliklərə qarşı mühafizəkarlığımız xırda bir detalda da özünü büruzə verir. Nədən biz də pendirçilikdə bir inqilab etməyək? Nədən bu sahədəki boşluqları yeniliklərlə doldurmayaq? Əsl sınaqdan keçirilməli sahədir. Əlimizdə olan məhsullarla başlamaq, kəndbəkənd gəzib əski pendir reseptlərini toplamaq, sistemləşdirmək və onun müasir metodlarla istehsalına nail olmaq mümkündür. Ən azından ortada bir Niderland təcrübəsi də var.

Dünyada 2 min çeşiddə pendir istehsal edildiyi söylənilir. İnsanların kofe, çay, tütün və kakao kimi məhsulların alışına xərclədikəri toplam vəsait, pendir üçün verdikləri vəsaitdən azdır. Niderland özünün yüzlərlə çeşid pendiri ilə həm istehsal sahəsində, həm də pendir ticarətində lider ölkələrdən biridir.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

31 İYUL
2022-Cİ İL
№ 014 (161)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## KİM "YAŞIL TƏQAÜD" ALA BİLƏR? – TƏLƏBƏLƏR ÜÇÜN YENİ İMKAN



Ali təhsil və elm sahəsində ətraf mühit və aqrar elmlərə dəstək olmaq məqsədilə Gürcüstanın Təhsil və Elm Nazirliyi ilə Ekologiya və Kənd Təsərrüfatı Nazirliyi arasında qarşılıqlı əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu təhsil və elm nazirinin müavini Nunu Mitskeviç və Gürcüstanın ekologiya və kənd təsərrüfatı nazirinin müavini Solomon Pavliaşvili imzalayıb.

Memorandum ekologiya, təbiətdən yararlanmaq, geologiya, hidrologiya, ətraf mühitin mühafizəsi texnologiyaları, aqronomiya, kənd təsərrüfatı və bu kimi defisit sahələr istiqamətində əməkdaşlığın möhkəmləndirilməsini nəzərdə tutur.

Memorandum çərçivəsində qeyd olunan sahələrə əsasən universitetlərdə artıq mövcud olan ali təhsil proqramları inkişaf etdiriləcək. Eləcə də bu istiqamətdə mütəxəssislərin magistratura və doktorluq proqramlarının araşdırma komponentinin həyata keçirilməsinə qoşulması üçün maksimum həvəsləndirilməsi planlaşdırılır.

Əməkdaşlıq çərçivəsində qeyd olunan sahələrin magistratura proqramlarının fərqlənən tələbələri üçün "yaşıl təqaüd" təsis edilib. "Yaşıl təqaüd" tələbələrə topladıqları biliyi təcrübəyə çevirmək, müxtəlif qurumlarda təcrübə keçmək və işlə təmin olunmaq imkanı verəcək.

Elmin populyarlaşdırılması çərçivəsində memorandumla Gürcüstanın Milli Elm Fondu tərəfindən defisit sahələrin tematikasında qrant müsabiqələrinə və araşdırmalara həvəsləndirilmə nəzərdə tutulub.

Memorandum eləcə də ekologiya barədə məlumat, təhsil mərkəzi, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi texnologiyası istiqamətində universitetlərin əməkdaşlığını nəzərdə tutur.

*Mənbə: etaloni.ge*

## PARLAMENT MİLLİ AZLIQLAR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ "1+4 TƏHSİL PROQRAMI"NI TƏKMİLLƏŞDİRƏCƏK



Gürcüstan parlamenti milli azlıqlar üçün nəzərdə tutulmuş "1+4 təhsil proqramı"nı təkmilləşdirəcək. Bu barədə Gürcüstan parlamentinin mətbuat xidmətindən məlumat verilib.

Məlumata əsasən, parlamentin Təhsil və elm komitəsinin üzvləri etnik azlıqların keyfiyyətli təhsilə çıxış imkanları ilə bağlı davam edən tematik araşdırmalar çərçivəsində "1+4 təhsil proqramı"nı həyata keçirən ali təhsil müəssisələrinin nümayəndələri ilə görüşüb.

İşçi görüşdə etnik azlıqların keyfiyyətli təhsilə çıxışı məsələləri, mövcud problemlər, onların həlli yolları və ehtiyaclar müzakirə edilib. Həmçinin "1+4 təhsil proqramı"nın səmərəliliyinin artırılması məqsədilə atılacaq addımlar barədə fikir mübadiləsi aparılıb.

Tematik tədqiqat qrupunun əsas məruzəçisi Xatuna Kvitsianinin sözlərinə görə, artıq Samtsxe-Cavaxeti və Kvemo Kartli regionlarında görüşlər keçirilib.

Bu görüşlərdə proqramın təkmilləşdirilməsi baxımından mühüm vəzifələr vurğulanıb.

Qeyd edək ki, "1+4 təhsil proqramı" azərbaycanlı, abxaz, osetin və digər etniklərin dilləri üzrə ümumi bacarıq imtahanından keçməyi və müvafiq bal topladıqda dövlət dilini öyrənmək və ali təhsil almaq imkanını nəzərdə tutur.

## TBİLİSİ MERİYASI UKRAYNALI QAÇQINLARIN SIĞINACAQLA TƏMİN OLUNMASI PROQRAMINI DAYANDIRIR



Tbilisi şəhər meriyasının qərarına əsasən, Gürcüstana gələn ukraynalı qaçqınlara sığınacaq əvəzinə pul kompensasiyası ödəniləcək.

Qərara görə, iyulun 31-dən Tbilisi meriyası Ukraynadan olan qaçqınların sığınacaqla təmin olunması proqramını dayandıracaq, əvəzində ukraynalı qaçqınlar ayda 300 lari məbləğində maddi yardım alacaqlar. Bundan əlavə, ailədəki hər adama 45 lari pul ödəniləcək.

Qeyd olunur ki, beynəlxalq təşkilatlar ("World Vision" və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı - UNHCR) da adambaşına 235 lari məbləğində yardım paketini nəzərdən keçirir.

Qeyd edək ki, mart ayından Tbilisi meriyası Ukraynadan olan qaçqınları paytaxtdakı 40 otelə yerləşdirib və gündə onları üç dəfə pulsuz yeməklə təmin edir.

Bu proqram çərçivəsində şəhər 5100-ə yaxın insanı qəbul edib və bu gün 2300-dən çox ukraynalı qaçqın otellərdə yaşayır.

Tbilisi meriyasının bu proqramı üçün büdcədən 11 milyon lari xərclənib. Ayın sonuna bu rəqəmin 14 milyona qədər artacağı gözlənilir. Proqram mart ayından avqustun 1-dək nəzərdə tutulub və iyulun sonunda başa çatacaq.

## ABŞ GÜRCÜSTANDA TAXILÇILIĞIN İNKİŞAFINA KÖMƏKLİK EDƏCƏK



Gürcüstanın kənd təsərrüfatı naziri Otar Şamuqianın verdiyi məlumata görə, ABŞ Gürcüstanda taxılçılığın inkişafına köməklik edəcək.

O, bildirib ki, bu məsələ barədə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyində keçirilən görüşdə razılıq əldə olunub.

Nazirin sözlərinə görə, ABŞ-a səfəri zamanı Gürcüstanda kənd təsərrüfatının, xüsusən də taxılçılığın və buğda əkini sahələrinin genişləndirilməsi və inkişafı, ərzaq təhlükəsizliyi məsələləri müzakirə olunub.

ABŞ tərəfi bu sahədə Gürcüstana hərtərəfli yardım göstərməyə hazır olduğunu bəyan edib.

Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına əsasən, 2021-ci ildə ölkədə buğda istehsalı 32,9 faiz artaraq 136,1 min ton təşkil edib.

Hesabat dövründə ölkədə arpa istehsalı 28,4 faiz artaraq 58,3 min tona çatıb. Qarğıdalı məhsulu isə 233 min ton təşkil edib ki, bu da 2020-ci illə müqayisədə 8,6 faiz azdır.

Qeyd edək ki, Gürcüstanda istehlak olunan buğdanın yalnız 5-də bir hissəsi (5/1 hissəsi) istehsal olunur. Qalan 90 faizdən də bir qədər artıq hissə xaricdən idxal olunur.

Cari ilin iyul ayında Gürcüstan hökuməti buğda və arpa ixracını bir il müddətinə qadağan edib.

## GÜRCÜSTANDA ÜMUMİ DAXİLİ MƏHSUL 10,5 FAİZ ARTIB

Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına əsasən, cari ilin birinci yarısında ölkədə istehsal edilmiş Ümumi Daxili Məhsulun (ÜDM) real dəyəri 2021-ci ilin eyni dövrü ilə müqayisədə 10,5 faiz artıb.

Təkcə iyun ayında ölkə iqtisadiyyatı ötən ilin eyni dövrü ilə müqayisədə 7,2 faiz böyüyüb.

Hesabat dövründə ən çox artım nəqliyyat və anbar təsərrüfatı, elektrik, qaz, informasiya və kommunikasiya, mehmanxana və restoranlar, mədənçıxarma sənayesində qeydə alınıb.

İstehsal, tikinti və daşınmaz əmlak sahələrində isə azalma qeydə alınıb.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.